**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ**

**ƏMRİ**

№ 30 «12» 04 2019-cu il

**Binəqədi qəsəbəsi flora və fauna yatağının bazasında Binəqədi Paleontoloji Muzeyinin yaradılması və muzey binasının tikintisi üçün müvafiq rəyin hazırlanması ilə əlaqədar komissiya yaradılması haqqında**

Azərbaycan Respublikasının Baş nazirinin müavini cənab Əli Əhmədovun 2018-ci il 28 dekabr tarixli, 17/17/5554-11/10/12 nömrəli dərkənarı ilə verilmiş tapşırığın icrasını təmin etmək məqsədilə Əmlak Məsələləri Dövlət Komitəsinin, 2019-cu il 25 fevral tarixli, 190120201684 nömrəli məktubu və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2019-cu il 20 fevral tarixli, 4/531-02-22 nömrəli məktubu ilə verilmiş təkliflərini nəzərə alaraq "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin 6.8.-ci bəndinə əsaslanaraq

ƏMR EDİRƏM:

1. Binəqədi rayonu, Binəqədi qəsəbəsində yerləşən flora və fauna yatağının bazasında Binəqədi Paleontoloji Muzeyinin yaradılması və muzey binasının tikintisi ilə əlaqədar birgə rəy hazırlamaq məqsədilə aşağıdakı tərkibdə komissiya yaradılsın:

1. Ramiz Göyüşov - Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş

şöbəsinin müdiri

2. Tariyel Eybətov - AMEA Təbiət Tarixi Muzeyinin direktoru
3. Obrik Zeyniyev - AMEA Təbiət Tarixi Muzeyinin direktor müavini
4. Əli Məmmədov - Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Ekspertiza İdarəsinin baş məsləhətçisi
5. Fazil Seyidov - Əmlak Məsələləri Dövlət Komitəsi Bakı Ərazi şöbəsinin baş məsləhətçisi

2. Komissiyaya tapşırılsın ki, Binəqədi qəsəbəsində yerləşən dördüncü dövrə aid flora və fauna yatağına yerində baxış keçirərək əsaslandırılmış rəy hazırlayaraq Binəqədi Rayon İcra Hakimiyyətinə təqdim etsin;

3. Əmrin icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanova həvalə edilsin.

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti

**Elxan Allahverdiyev**